ƏSGƏROV NURLAN BAYRAM OĞLU

Nurlan Əsgərov 1995-ci ilin 3 dekabr tarixində Masallı rayonunun Kalinovka kəndində anadan olub. 2015-ci ilin iyul ayında həqiqi hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq xidmət etmək üçün könüllü olaraq hərbi xidmətini baş əsgər rütbəsində davam etdirmişdir. Gizir Nurlan Əsgərov 2016-cı ilin aprel ayında Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışma zamanı qəhrəmancasına şəhid oldu. Aprelin 5-i isə Nurlan Əsgərov doğulduğu Masallı rayonunun Kalinovka kəndində son mənzilə yola salındı. Nurlan Əsgərov ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edildi. Şəhidin xatirəsinə kəndin mərkəzində küçəyə onun adı verilmiş, abidə və bulaq inşa edilib.